# Türkmənçay sülh müqaviləsi və ermənilərin kütləvi surətdə Şimali Azərbaycana köçürülməsi

***Tarixi Azərbaycan ərazilərinin Rusiya və İran imperiyaları arasında 2 yerə bölünməsini tamamlamış Türkmənçay müqaviləsinin imzalanmasından 194 il keçir. Sonrakı dövrlərdə xalqımızın başına gətirilmiş bir sıra müsibətlər həmin faciəli tarixdən qaynaqlanmışdır. Ümumiyyətlə, 1804–1813-cü və 1826–1828-ci illərdə çar Rusiyası və Qacarlar İranı arasında baş vermiş irimiqyaslı hərbi toqquşmalar milli tariximizə Azərbaycan torpaqları uğrunda aparılan işğalçı və qarətçi müharibələr kimi daxil olmuşdur.***

Rusiya imperiyasında daxili siyasi-sosial ziddiyyətlərin nəticəsi olaraq 1825-ci il dekabr ayının 25-də Sankt-Peterburq şəhərində dekabristlər üsyanı adlı qarışıqlığın baş verməsi xəbərini ingilis diplomatı Şilan Qacarlar xanədanına çatdırandan sonra Tehranda 12 il əvvəl itirilmiş əraziləri geri qaytarmaq üçün qalibiyyətli müharibəyə yeni ümidlər yarandı, hərbi-siyasi əhval-ruhiyyə gücləndi. Şah sarayında belə hesab edirdilər ki, 1813-cü il 12 oktyabr Gülüstan sülh müqaviləsinin qisasını almaq üçün əlverişli məqam yaranmışdır. Qeyd olunan sülh müqaviləsinin on bir maddəsinin heç biri Qacarlar sarayının dövlət mənafeyinə uyğun gəlmirdi.

1826-cı il iyul ayının 19-da İran ordusu şahzadə Abbas Mirzənin komandanlığı ilə Azərbaycanın şimal ərazisinə daxil oldu. Bu zaman knyaz Menşikovun başçılıq etdiyi Rusiya diplomatik heyəti yeni imperatorun – çar I Nikolayın tanıtdırılması üçün Tehrana göndərilmişdi. I Nikolay Fətəli şaha büllur taxt hədiyyə göndərmişdi. Rus elçiləri Qacarlar qoşununun Şuşa və Gəncənin qala qapılarının qarşısında olduqlarından xəbərsiz idilər. Elçiləri Tehranda hər yandan təcrid etmişdilər.

Başlanmış yeni savaşda İran dövlətinin məqsədi işğalçı rus ordusunu Cənubi Qafqazdan birdəfəlik vurub çıxartmaq, Tiflis şəhərini tutmaq və rus qoşunlarını Terek çayının o biri tərəfinə qovmaq idi. Rus komandanlığının hədəfi isə bu dəfə Arazın cənubuna doğru irəliləmək, Təbrizi tutmaq idi. Say tərkibinə görə üstünlük İran tərəfində idi. Şahın piyada ordusu 25 min əsgərdən və 10 min təlim keçmiş mahir döyüşçüdən ibarət idi. Silahlı qüvvələrin bir hissəsi Abbas Mirzəyə, bir qismi isə Fətəli şaha tabe idi. Rus ordusunun döyüş təcrübəsi yüksək idi. Cənubi Qafqazda Rusiyanın böyük sayda müxtəlif qoşun birləşmələri var idi.

Rusiya işğalına son qoymaq uğrunda müharibədə Azərbaycanın, demək olar ki, bütün bölgələri və sosial təbəqələri silaha sarılmışdı. Abbas Mirzənin başçılıq etdiyi birinci qoşun Qaradağ – Gülənbər yolu ilə Qarabağa doğru hərəkət etdi. İkinci qoşun Əmir xan və Tehranda sığınacaq tapmış Qarabağ xanı Mehdiqulu xanın rəhbərliyi ilə Naxçıvan– Sisian dağ yolu ilə arxadan Qarabağa göndərildi. Digər qoşunlarla İbrahim xan Qacar və Şirvanlı Mustafa xan Şirvana, Mirhəsən xan Talışa, onun qardaşı Sam Aslan, İrəvan sərdarı Hüseyn xan və gürcü çarı İraklinin oğlu Aleksandr Mirzə Tiflisə yollandılar. Uğurlu xan Ziyadoğlu Gəncəyə, Səlim xanın oğlu Hüseyn xan qardaşı Hacı xanla Şəkiyə daxil oldular.

Müharibənin ilk günləri rus qoşunları üçün uğursuz oldu. İrəlidə gedən İran qoşunları Xudafərin körpüsünü sürətlə keçərək qarşısındakı rus qoşununu məğlub etdi. Döyüş zamanı ruslardan 300 nəfərə qədər əsgər öldürüldü, xeyli döyüşçü əsir götürüldü. Əsir düşənlərin arasında polkovnik Nazimov və mayor Kavalenski də var idi. Abbas Mirzənin başçılıq etdiyi qoşun Şuşa qalasını iyul ayının 26-dan başlayaraq, 48 gün mühasirədə saxladı. Qalanın rəisi, polkovnik Reut müdafiəni yaxşı təşkil etmişdi. Abbas Mirzə bütün cəhdlərinə baxmayaraq, Şuşa qalasını ruslardan azad edə bilmədi.

Mühasirənin uzun müddət davam etməsi müharibənin sonrakı gedişinə təsir göstərdi. Abbas Mirzə dağınıq halda olan rus hərbi qüvvələrini sürətli hücumla məhv etmək əvəzinə, Şuşa ətrafında ilişib qaldı. Bu müddətdə Rusiya komandanlığı müxtəlif yerlərdəki dağınıq halda olan qoşunları birləşdirməyə və üstünlüyü ələ keçirməyə imkan tapdı. Abbas Mirzə belə güman edirdi ki, Şuşanı azad etməklə müharibənin taleyini həll edəcək. Çünki o dövrdə bu qala rusların Azərbaycan ərazisində ən güclü hərbi istinadgahı və istehkamı idi.

Abbas Mirzənin oğlu Məhəmməd Mirzə başçılıq etdiyi ordu ilə Şəmkiri tutdu. Lakin Şəmkir altında yerləşən düzəngahda baş verən döyüş Qacarlar ordusunun məğlubiyyəti ilə başa çatdı. Bu döyüşdə onlar 7 min 500-ə qədər döyüşçü itirdilər. Bunun ardınca rus qoşunları 1826-cı il sentyabr ayının 4-də Gəncə şəhərini yenidən ələ keçirdilər. Qacar qoşunları Talış xanlığından başqa, dalbadal bütün Şimali Azərbaycan ərazilərini tərk etməyə məcbur oldu.

Arazdan cənuba daxil olan rus qoşunları 1827-ci ilin yanvar ayında Qaradağın mərkəzi Əhər şəhərini tutdu. Aştarak və Uşaqan kəndləri yaxınlığında baş verən döyüşlərdə Qacarlar ordusu yenə məğlub oldu. Rus ordusu Yeristov komandanlığı ilə 1827-ci il oktyabr ayının 2-də Təbrizə hücum etdi. Şəhərin müdafiəsinə Allahyar xan başçılıq edirdi. Lakin Təbriz ruhanilərinin başçısı Ağa Mir Fəttahın rusların tərəfinə keçməsi vəziyyəti kəskinləşdirdi.

Təbriz şəhərini tutan rus qoşunları Tehrana da yol aça bildilər. Cənubi Azərbaycanı idarə etmək üçün general Ostenin rəhbərliyi ilə rus hərbçilərindən və Təbriz şəhəri nümayəndələrindən ibarət heyət yaradıldı. Müctəhid Mir Fəttah da bu müvəqqəti heyətin tərkibində idi.

Qacarlar sarayı ilə Rusiya komandanlığı arasında sülh müqaviləsinin əsas müddəaları 1826-cı il sentyabr ayının 26-da Rusiyanın xüsusi bir bəyanatında elan olunmuşdu. Hər iki dövlətin nümayəndələri arasında Qarazieddin danışıqlarından sonra Rusiya səfiri A.Qriboyedov Qacarlar rəhbərliyinin mövqeyinə təsir göstərmək məqsədilə elan etdi ki, biz irəli gedib Azərbaycana sahib olacaq, bu böyük vilayətin “müstəqilliyini” təmin edəcəyik.

1827-ci il noyabr ayının 6-da Deykarqanda İranla Rusiya arasında sülh bağlanması haqqında danışıqlar yenidən başlandı. Danışıqların gedişi zamanı sülh təminatı barədə böyük narazılıq ortaya çıxdı. Bundan istifadə edən rus qoşunları hücuma başladılar. Qorxuya düşən Qacarlar şahı sülh müqaviləsi ilə bağlı danışığa razılıq verdi. Rus qoşunları bu zaman – 1828-ci il yanvarın 28-də Urmiyanı, fevralın 8-də isə Ərdəbili tutdular. Beləliklə, sülh bağlanması sürətləndi.

Təbriz yaxınlığında yerləşən Türkmənçay kəndində İran ilə Rusiya arasında ədalətsiz, müstəmləkəçi və alçaldıcı sülh müqaviləsi 1828-ci il fevral ayının 9-dan 10-a keçən gecə– İsa peyğəmbərin anadan olduğu tarixdə imzalandı. Türkmənçay sülh müqaviləsinin şərtləri 16 maddədən ibarət idi. Bu müqavilənin bəzi maddələri 1813-cü il oktyabrın 12-də hər iki dövlət arasında imzalanmış Gülüstan sülhünün məzmununu əhatə edirdi.

I maddədə tərəflər arasında əbədi sülh nəzərdə tutulurdu.

II maddədə Gülüstan sülhünün nəzərdə tutduğu sülh və dostluq münasibətlərinin davam etdirilməsi, III maddədə Naxçıvan və İrəvan xanlıqlarının Rusiyaya ilhaq edilməsi əksini tapmışdı. IV maddədə hər iki dövlət arasında sərhədlərin demilitasiyası və demorkasiyası, V maddədə Qafqaz sıra dağları və Xəzər dənizində yerləşən bütün ərazilərin və adaların və həmin ərazilərdə yaşayan əhalinin Rusiya imperiyasının təbəələri olduğu təsbit olunmuşdu.

Sonrakı maddələrə müharibənin gedişi zamanı vurulan ziyanın ödənilməsi, Qacarların taxt-tac varisliyinin tanınması, Xəzərdə gəmilərin hərəkəti və dənizdə yalnız rus donanmasının saxlanılması, hər iki ölkə arasında ticarət əlaqələri, təbəələrin bütün tələblərinin qarşılıqlı surətdə ödənilməsi, əsir düşmüş təbəələrin qarşılıqlı surətdə dəyişdirilməsi, satqınlığa və dağıntılara görə heç kimin cəzalandırılmaması, nəhayət, ruslara sadiqlik göstərən ermənilərin Şimali Azərbaycana köçürülməsi kimi məsələlər yer almışdı.

Rusiya imperiyasının hakim dairələri Azərbaycanın şimal ərazisinin işğalından əvvəl burada möhkəmlənmək və özləri üçün siyasi dayaq yaratmaq planlarını da işləyib hazırlamışdı. Azərbaycan ərazisində xristian əhalinin üstünlüyünü təmin etmək, ilk növbədə, qonşu İran və Osmanlı dövlətləri ərazisindən özlərini hay adlandıran erməniləri torpaqlarımıza gətirib məskunlaşdırmaq həmin məkrli siyasətdə mühüm yer tutmuşdur.

Nə üçün Rusiya imperiyası belə bir planı həyata keçirməkdə haylara arxalanırdı? İlk növbədə, ona görə ki, haylar rusların Cənubi Qafqaza işğalçılıq yürüşlərində fəal iştirak edirdilər. Torpağı, Vətəni, paytaxtı, dövlətçilik tarixi, folkloru, mədəniyyəti və tarixi şəxsiyyəti olmayan haylar ruslara göstərdiyi bu nökərçilik xidmətlərinin əvəzində tarixi Azərbaycan torpaqlarına sahiblənmək istəyirdilər.

Rusiya–İran müharibələri zamanı Qarabağ xanlığında ərazinin xeyli hissəsi boş qalmışdı. Kəndlər yandırılmış, əhalinin əmlakı qarət edilmişdi. Ermənilərin Zəngəzura və Qarabağa köçürülməsi prosesinin ifrat hal alması və gələcəkdə törədəcəyi təhlükə ilə bağlı o zaman İrandakı rus səfiri A.Qriboyedov çara ciddi xəbərdarlıq etmişdir: “Əlahəzrət, olmaya, mərkəzi rus torpaqlarında ermənilərin (hayların) məskunlaşmasına icazə verəsiniz. Onlar elə tayfadırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hayküy salacaqlar ki, bura bizim qədim dədə-baba torpaqlarımızdır”.

Lakin 1823-cü ildən Rusiya imperiyası hayları kütləvi surətdə İrandan və Osmanlıdan Qarabağa köçürmək siyasətinə start vermişdi. Türkmənçay sülh müqaviləsindən sonra hayların Qarabağ ərazisinə gətirilib məskunlaşdırılması misli görünməmiş hal almışdı. Hayların Qacarlar məmləkətindən Şimali Azərbaycan ərazilərinə, o cümlədən də Qarabağa köçürülüb gətirilmələri üçün xüsusi komitə yaradılmışdı. Bu komitəyə milliyyətcə erməni X.Lazarev başçılıq etmişdi. Sərhədə yaxın olduğu üçün o taydan gətirilən haylar, ilk növbədə, Zəngəzurda yerləşdirilmişdi.



1823-cü ilə aid olan kameral təsvirdə göstərilirdi ki, Qarabağ əyalətində yaşayan 20 min 95 ailənin 15 min 729-u (78,3 faizi) azərbaycanlı, 4 min 366 ailə isə başqa millət və xalqların nümayəndələri idilər. 1829-cu il sentyabr ayının 14-də Rusiya ilə Osmanlı dövləti arasında imzalanan Ədirnə sülh müqaviləsindən sonra Türkiyədən hayların Şimali Azərbaycan ərazilərinə gətirilmələri daha da sürətlənmişdi. Bu köçürmənin nəticəsi olaraq, 1832-ci il məlumatına görə, Qarabağ əyalətində 13 min 965 azərbaycanlı, 6 min 491 hay ailəsi yaşayırdı.

Göründüyü kimi, Türkmənçay və Ədirnə sülh müqavilələrindən sonra gəlmə hayların Qarabağ əyalətində sayı birdən-birə xeyli artmışdı. Ermənilərin kütləvi surətdə torpaqlarımıza gətirilib məskunlaşdırılması gələcəkdə onların ərazimizdə özləri üçün ayrıca dövlət yaratmaq həvəslərini artırdı. Hayların ərazimizə gətirilib məskunlaşdırılmalarında hay kilsəsi mühüm işlər görürdü. 1827-ci il noyabr ayının 11-də erməni qriqorian kilsəsinin başçısı (katalikos) Nerses Qafqazdakı rus qoşunlarının komandanı, qraf İ.Paskeviçə məktub göndərərək hay dövləti yaratmaq haqqında təklifini bildirmişdi. Lakin o, keşişin dövlət yaratmaq haqqında təklifini rədd etmişdi.

Bütün bunlar bir daha göstərir ki, Rusiya imperiyası ilə İran və Osmanlı dövlətləri arasındakı müharibələr olmasaydı, nə Qarabağda, nə Zəngəzurda, nə də İrəvan torpaqlarında haylar da olmayacaqdı. Tarixçi N.Şavrov 1911-ci ildə yazırdı ki, Qarabağın dağlıq (keçmiş dağlıq Qarabağ) ərazisində və Göyçə gölü ətrafında daha çox erməni (hay) məskunlaşdırılmışdır. Həmin ərazilərə 124 min hay köçürülmüşdür: “Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfər ermənininin (hayların) 1 milyondan çoxu yerli deyil və onları vilayətə biz köçürmüşük”.

İrəvan şəhərinin etnik tərkibini araşdıran hay tarixçisi Zaven Korkodyan “Sovet Ermənistanının əhalisi 1831–1931-ci illərdə” adlı əsərində yazırdı: “1883-cü ildə İrəvan (Rəvan– Y.H.) şəhərinin 18 min 766 nəfər əhalisinin 15 min 992 nəfəri, 1886-cı ildə isə 27 min 246 nəfərdən 23 min 626 nəfəri, yəni, 85,2 faizi azərbaycanlılar olmuşdur”.

1918-ci il may ayının 29-da qərb dövlətlərinin təzyiqi ilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti müəyyən şərtlərlə İrəvan şəhərini paytaxt şəhəri kimi daşnak hökumətinə güzəştə getmişdi. XX əsrin 20-ci illərində “Ermənistan” adlanan oyuncaq dövləti rus bolşevikləri Azərbaycanın Qərb torpaqlarında yaratmışdır. Vaxtilə bu məkanda İrəvan xanlığı yerləşirdi. Bura azərbaycanlıların tarixi Vətənidir. İrəvan şəhəri oyuncaq Ermənistan dövlətinin paytaxtı olandan sonra burada Azərbaycan xalqına məxsus bütün maddi-mədəniyyət abidələri, o cümlədən, 8 məscid hay ünsürləri tərəfindən məhv edilmişdir.

Tarixən erməni toplumunun himayədarlarının köməyilə özgə torpaqlarına yiyələnmək kimi yolverilməz cinayəti, nəhayət, 2020-ci ilin payızında xalqımızın Qarabağ uğrunda Vətən müharibəsində ilk dəfə layiq olduğu cəzanı aldı. Azərbaycan Ordusu bütün dünya haylarının və onların havadarlarının şirnikləndirdiyi işğalçı, quldur hay silahlı birləşmələrini darmadağın edib, özgə torpaqlarına yiyələnməyin mümkün olmadığını bu vətənsiz topluma və dünyanın ədalətsiz, davakar mərkəzlərinə sübut etdi.

***Yunis HÜSEYNOV,***
***tarix üzrə fəlsəfə doktoru***